## "Xalq qəzeti"– 97

***Ana dilində nəşr olunan ən uzunömürlü mətbuat vasitəmiz – "Xalq qəzeti" fəaliyyətinin 97-ci ilini də uğurla başa vurur. Yəni sabah qəzetimizin ad günüdür. Bu münasibətlə yazdığım qeydləri görkəmli mətbuat tədqiqatçısı Qulam Məmmədlidən 1992-ci ilin aprelində "Dalğa" qəzeti üçün aldığım müsahibənin son abzası ilə başlamaq istəyirəm:***

***Respublikada qəzetçilik ənənələrinin formalaşmasında, jurnalistikamızın inkişafında "Xalq qəzeti"nin xidmətləri xüsusi qeyd olunmalıdır. Bugünkü çoxsəsli, rəngarəng Azərbaycan mətbuatının bir çox görkəmli nümayəndələri bu qəzetin yaradıcılıq məktəbini keçmişlər. Müstəqilliyimizin qazanılmasından sonra da "Xalq qəzeti" respublikamızın ictimai həyatında baş verən hadisələrə cəsarətlə müdaxilə etmiş, bir çox problemlərin aşkarlanmasında mühüm rol oynamışdır.***

***Ulu öndər Heydər Əliyevin "Xalq qəzeti"nin 75 illiyi münasibətilə redaksiya kollektivinə göndərdiyi məktubdan.***

# Milli tariximizin son yüz ilinin salnaməsini yaratmış qəzet



"Geriyə baxsaq, görərik ki, mətbuat vasitələrimizin hamısı Azərbaycan üçün ictimai-siyasi baxımdan əlamətdar olan dövrlərdə ərsəyə gəliblər. İndi də həmin dövrlərdən biridir. Milli oyanışın, xalq azadlıq hərəkatının müəyyən nəticələri var.Yarım ildir ki, dövlət müstəqilliyimizi bərpa etmişik. Yəni xalqın həyatında mühüm dövrdür. Ona görə də yeni qəzetlərin yaranması, yeni fikirlərin səsləndirilməsi tamamilə təbiidir. Qəzet açın. Amma bilin ki, bu, çox məsuliyyətli işdir. İndi görürsənmi, gəlib məndən yüz il qabaqkı qəzetlər barədə soruşursan. Mən də o dövrlərin mətbuat tarixini öyrənmişəm, sənə danışıram. Bax, yüz ildən sonra da sizin qəzetləri kimsə tədqiq edəcək, kimlərsə maraqlanacaq və bu gün nə yazdığınızı öyrənmək istəyəcəklər. Qərəzli, yalan, əsası olmayan, fitnə-fəsad məqsədli yazıları qələmə alanlar da, onların qəzetə verilməsinə şərait yaradanlar da, özləri həyatda olmasalar belə, gələcək nəsillərin qarşısında cavab verəcəklər, qınaq ünvanına çevriləcəklər. Ona görə də haqqı danışın, ədaləti yazın, reallıqları əks etdirin ki, qəzetiniz xalqın tarixinə düşə bilsin. Qəzeti siz buraxsanız da, o, sizin yox, xalqındır. Bax, "Kommunist" qəzetini görürsən? İndi o qəzeti yaradan insanlar da, həmin partiya da, demək olar ki, yoxdur. Amma o qəzet hələ yüz illər yaşayacaq. Bilirsən, niyə? Mən o qəzetin tarixini çox yaxşı öyrənmişəm. Nəinki hər nömrəsi, hətta, hər səhifəsi də xalqın həyatıdır, tarixidir. Orada bizim mədəniyyətimiz də, ədəbiyyatımız da, hətta əxlaqımız da vardır."

Başqa bir məqam. 1973-cü ilin yazı idi. Qutqaşen ( indiki Qəbələ) Rayon Partiya Komitəsinin iclasında birinci katib Abdulla Bullayev bir komsomol fəalı kimi məndən soruşdu ki, hansı qəzetləri oxuyursan? Dedim: – "Qalibiyyət" (rayon qəzeti idi) , "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət" və "Kommunist". Katib maraqla baxdı və soruşdu ki, nə üçün tərsinə saydın? Onun fikrincə, mən oxuduğum qəzetlərin siyahısına "Kommunist" qəzeti ilə başlamalıydım. Cavab verdim ki, mənə əvvəlcə öz rayonumuz barədə yazılar verən qəzet lazımdır. Abdulla müəllimin səsi indiki kimi qulağımdadır: – Yadda saxla, "Kommunist" qəzeti bizim ölkəmizin və xalqımızın həyatında elə bir rol oynayıb ki, onu heç bir qəzetlə müqayisə etmək və ya əvəzləmək mümkün olmayacaq. "Kommunist"in təkcə İkinci Dünya müharibəsi illərindəki fəaliyyəti bəs edər ki, sən bütün sıralamalarda onun adını birinci çəkəsən.

Həmin ifadəni yadımda saxladım və çox sonralar bu qəzet haqqında Mirzə İbrahimov, Mikayıl Abdullayev, Arif Məlikov, Cavad Heyət və digər görkəmli insanlardan daha yüksək qiymətləndirmələr eşitdim. Amma heç zaman ağlıma gəlməzdi ki, bir zamanlar bu mötəbər kollektivin üzvü olacağam. İnanılası da deyildi. Çünki bu qəzetin redaktorları sırasında Ruhulla Axundov, Həbib Cəbiyev, Ağababa Yusifzadə, Böyükağa Talıblı, Əli Vəliyev, Rza Quliyev, Xasay Vəzirov, İsrafil Nəzərov, Ağababa Rzayev, Rəşid Mahmudov, Cəmil Əlibəyov, Tofiq Rüstəmov və bir çox görkəmli ziyalılar olub, Məmməd Səid Ordubadi, Tağı Şahbazi, Cəfər Cabbarlı, Seyid Hüseyn, Məmmədəli Sidqi, Süleyman Məlikov, Şəmsəddin Abbasov, Xəlil İbrahimov, Zülfəli İbrahimov, Cəlil Xəlilov kimi təcrübəli qələm sahibləri bu qəzetdə əməkdaşlıq ediblər. Görkəmli fırça ustaları Əzim Əzimzadə və Hüseyn Əliyev uzun illər onun rəssamı olublar. Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Məmməd Rahim, Əhməd Cəmil bir çox şeirlərini ilk dəfə "Xalq qəzeti"ndə dərc etdiriblər. Mirzə İbrahimov, Süleyman Rəhimov, Əvəz Sadıq qəzetin sifarişi ilə çoxlu oçerk və publisistik məqalə yazıblar ...

Yuxarıdakı cümlələrin təkrarı kimi çıxmasın, qəzetimizin tarixçəsi ilə tanış olduqca adam elə bilir ki, bir mətbuat vasitəsini deyil, tarix salnaməsini vərəqləyirsən. Ölkənin ağır günlərində, xüsusən 1941-45-ci illərdə qələmə alınmış yazıları həyəcansız oxumaq olmur. Bəşəriyyətin ümumi düşməninə nifrət yaradılması üçün yazılmış məqalələrin hər biri ayrılıqda bir ədəbi əsər təsiri bağışlayır. 1941-1945-ci illər müharibəsi dövründə "Kommunist" qəzeti iki xətti əsas götürmüşdü: ön və arxa cəbhə xətlərinin paralel, həm də bir-biri ilə sıx bağlı işıqlandırılmasını. Müharibənin gedişinə, Azərbaycan döyüşçülərinin rəşadətlərinə dair, demək olar, hər nömrədə yazılar verilirdi. Oxucular 416-cı, 77-ci, 223-cü və digər Azərbaycan diviziyalarının uğurlu əməliyyatlarından müntəzəm xəbər tuturdular. Həmyerlilərimizin Qafqaz dağlarının ətəklərində, Stalinqradda və Leninqradda, Moskva ətrafındakı döyüşlərdə göstərdikləri igidliklər arxa cəbhədə çalışan əməkçiləri daha hünərlə işləməyə ruhlandırırdı. Arxa cəbhədə elə adamlar vardı ki, yorulmaq nə olduğunu bilmir, cəbhəyə getmiş oğullarının əvəzində də işləyirdilər.

Azərbaycan Respublikasının həyatındakı mühüm hadisələrdən birinə çevrilmiş 14 iyul 1969-cu il tarixli plenum bu qəzetin xalqımız üçün nə qədər əhəmiyyət kəsb etdiyini bir daha ortaya qoymuşdu. Belə ki, respublikanın 1 nömrəli qəzetinin fəaliyyətinə həmişə yüksək qiymət vermiş ümummilli liderimiz Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra ictimaiyyət qarşısında ilk çıxışını bu nəşrin 50 illik yubileyində etmişdi. Respublikaya rəhbərlik etdiyi dövrdə məruzə və çıxışlarında dəfələrlə qəzetin fəaliyyətini yüksək dəyərləndirən ulu öndər "Xalq qəzeti"nin 75 illiyinə göndərdiyi məktubda yazırdı: "Respublikada qəzetçilik ənənələrinin formalaşmasında, jurnalistikamızın inkişafında "Xalq qəzeti"nin xidmətləri xüsusi qeyd olunmalıdır. Bugünkü çoxsəsli, rəngarəng Azərbaycan mətbuatının bir çox görkəmli nümayəndələri bu qəzetin yaradıcılıq məktəbini keçmişlər. Müstəqilliyimizin qazanılmasından sonra da "Xalq qəzeti" respublikamızın ictimai həyatında baş verən hadisələrə cəsarətlə müdaxilə etmiş, bir çox problemlərin aşkarlanmasında mühüm rol oynamışdır".

O qədər də uzaq dövr olmadığına görə hamımız xatırlayırıq. Bu qəzetin elə dövrləri olub ki, həftədə altı dəfə və hər gün 500 mindən çox tirajla çıxıb. Bu, o deməkdir ki, hər bir Azərbaycan ailəsi onu oxuya bilib, onun haqq səsini eşidib, o istiqamətdə tərbiyələnib. Qəzetin mövzu rəngarəngliyi həmişə diqqəti cəlb edib. Qabaqcıl ictimai fikrin, milli tərəqqi ideyasının təbliğinə, xalqımızın azadlıq arzularına, milli şüurun, mədəniyyətin formalaşmasına böyük təsiri olan yazılar oxucuları cəmiyyətdə baş verən hadisələrə açıq gözlə baxmağa sövq edib.

50 ildən artıq bu redaksiyada çalışmış qocaman jurnalist Telman Heydərov yazırdı: "Xalq qəzeti" həmişə xalqa, ölkə ictimaiyyətinə arxalanıb. Onun ətrafında böyük fəhlə-kəndli müxbirlər ordusu olub. Hər gün bu qəzetə müxtəlif peşə sahiblərindən onlarca məktub gəlirdi. Redaksiyada hər bir məktub diqqətlə öyrənilir, onların bir çoxu qəzetdə dərc edilirdi. Qəzet, beləliklə, ictimaiyyətlə sıx əlaqə qururdu. Az bir vaxtda o, Azərbaycan zəhmətkeşlərinin sevimli qəzetinə çevrildi. Adamlar onun səhifələrində ölkə daxilində və beynəlxalq aləmdə baş verən ən son hadisələrlə tanış olur və bu, qəzetə marağı gündən-günə artırırdı".

Ötən əsrin səksəninci illərinin sonlarında bütün dünyada gedən ictimai-siyasi proseslər Azərbaycandan da yan keçmədi. Daha doğrusu, dünyanın müxtəlif ölkələrindəki ağalarına güvənən ermənilər Azərbaycana qarşı ərazi iddialarını açıq şəkildə ortaya qoydular və təklənmiş Azərbaycan çoxsaylı problemlərlə üz-üzə qaldı. Həmin illərdə qəzetin müxbiri Firudin Rəsulovun Qarabağdan ( "Topxana harayı") məqaləsi, müxbirlər Elman Qədirovla Qüdrət Piriyevin Kremlin ikili standartlarına etiraz edən xalqımızın toplaşdığı "Azadlıq" meydanından verdikləri gündəlik reportajlar, digər müxbirimiz Telman Əliyevin isə bilavasitə Moskvadan – SSRİ Xalq Deputatları Sovetinin qurultayının iclaslarından yazdığı materiallar "kommunist" sözündən bezmiş sadə azərbaycanlılarda "Kommunist" qəzetinə qarşı inam və etimad yaradırdı.




Biz bu qəzetdə gənc müstəqil dövlətimizin üç rəhbərinin öz vəzifə postunu qoyub qaçması, ölkəyə xilaskar kimi dəvət etdiyimiz liderə sui-qəsd təşkil edilməsi, Gəncədə qardaş qırğınına rəvac verilməsi barədə materiallar verəndə nə qədər təəssüflənmişdiksə, Böyük Qayıdış, Qurtuluş, ölkədə vətəndaş müharibəsinin qarşısının alınması, müstəqillik dövründə ilk Konstitusiyanın qəbul edilməsi barədə yazanda bir o qədər fəxr və iftixar hissi yaşamışıq. Çox şükür ki, bizim sevincli yazılarımız təəssüf gətirən materiallardan qat-qat artıq olub. 2003-cü ilin payızından sonra isə həmin sevinc və iftixarımız, demək olar ki, hər gün artıb.

Mən bu sətirlərin müəllifi kimi, böyük məmnunluq hissi ilə yaşayıram ki, Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi zamanı, ölkəmizin Avropa Şurası Nazirlər Komitəsinə sədrlik etdiyi dövrdə, respublikamızın kosmosa öz rabitə peykini çıxardığı anlarda və ümumiyyətlə, Azərbaycanın adı ilə bağlı olan istənilən uğurdan dərhal sonra 97 yaşlı qəzetimizin səhifələrində həmin nailiyyətləri vəsf edən yazılarım işıq üzü görüb. Biz "Xalq qəzeti" olaraq onunla da fəxr edirik ki, bu gün Rusiya Federasiyası, İran İslam Respublikası, Türkiyə Cümhuriyyəti kimi güclü region ölkələri gənc müstəqil Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin region və dünya üçün əhəmiyyət kəsb edən siyasi təşəbbüslərini dəstəkləyir, Azərbaycanın iştirakı olmadan regionda heç bir layihə reallaşdırılmır. Mətbuat təmsilçisi bundan artıq nə arzulaya bilər ki?

Müdriklik dövrünü yaşayan, milli tariximizin son yüz ilinin mükəmməl salnaməsini yaratmış qocaman qəzetimizin 97 yaşını təbrik edirik!

*İttifaq MİRZƏBƏYLİ,*
*"Xalq qəzeti"*